# Poliqrafiya məhsulları istehsalı:
# əlverişli bizmes mühitin yaradılması imkanları

mövsuzunda

# Tədqiqat işi

**Müəllif:** Qalib Toğrul

*Bu tədqiqat işində Azərbaycan Respublikasında poliqrafiya məhsulları istehsalının mövcud durumu araşdırılıb, poliqrafiya sənayesinin inişafına mane olan amillər araşdırılıb, hər bir amil üzərində ətraflı dayanılıb, oxşar ölkələrin bu sahədəki təcrübəsi öyrənilib, müvafiq nəticələr çıxarılaraq təkliflər hazırlanıb.*

*Tədqiqiatln metodologiyasını poliqrafiya sənayesinin fəaliyyətini xaraketrizə edən yerli və* idxalla *bağlı xarici statsitik bazanın toplanaraq işlənilməsi, hüquqi baza və standartlar sahəsində milli və beynəlxalq sənədlər arasında müqayisələrin aparılması, poliqrafçılar arasında dərinləşdirilimiş müsahibələrin keçirilməsi təşkil edib.*

**Bakı – Aprel 2017**

# Mündəricat


1. Poliqrafiya məhsulları istehsalı sənayesi ....................................................................................3

2. Poliqrafiya məhsullarının növləri ……………………………………………………………3

3. Azərbaycanda poliqrafiya məhsulları istehsalı sənayesinin mövcud durumu .................................4

4. Poliqrafiya işinin qanunvericilik bazası ........................................................................................7

5. Azərbaycanda poliqrafiya sənayesinin səmərəli inkişafına mane olan amillər ................................8

*5.1 Qəzet, kitab və jurnalların tirajının az olması*

*5.2 Reklam bazarının zəif inkişafı*

*5.3 Yayım nöqtələrinin (qəzet köşklərinin) azalması, səyyar satışın qadağan olunması, poçtların ənənəvi funksiyasını yerinə yetirməməsi*

*5.4 İqtisadiyyatın bütün sahələrində qərarlaşmış yüksək inhisarçılığın biznesin dövlət sifarişlərindən yararlanması imkanlarını süni şəkildə məhdudlaşdırması*

*5.5 Bu sahəyə vergi və gömrük güzəştlərinin verilməməsi*

*5.6 Sahibkarların təşkilatlanmaması*

*5.7 Xammalın və çap avadanlıqlarının xaricdən idxal olunması və çox baha başa gəlməsi*

*5.8 Poliqrafiya sahəsində standartların olmaması, qanunvericilik bazasının qeyri-təkmilliyi.*

6. Poliqrafiya sənayesinin inkişafı ilə bağlı təkliflər ........................................................................... 19


**Akronimlər**

DSK – Dövlət Statistika Komitəsi

DGK - Dövlət Gömrük Komitəsi

ƏDV – Əlavə Dəyər Vergisi

KİV – Kütləvi İnformaisya Vasitələri

VN - Vergilər Nazirliyi

BŞTXD - Bakı Şəhər Ticarət və Xidmət Departamenti

NK - Nazirlər Kabineti

MEA - Milli Elmlər Akademiyası

MN - Maliyyə Nazirliyi

MTN - Mədəniyyət və Turizm Nazirliyi

SMPDK – Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi

TN - Təhsil Nazirliyi

ISO – Beynəlxalq Standartlaşdırma Təşkilatı

DIN – Almaniya Standartlaşdırma İnstitutu

## 1. Poliqrafiya məhsulları istehsalı sənayesi

Poliqrafiya səanayesinin hüdudularının müəyyənləşdirilməsi, tədqiqatda istifadə olunan bəzi terminlərin mənasının dəqiqləşdirilməsi məqsədilə bu bölmədə Poliqrafiya sənayesi, mətbəə, rəqəmsal və ofset çap, poliqrafiya məhsullarının növləri kimi məsələlər nəzərdən keçirilir.

Poliqrafiya sənayesi çap məhsullarının istehsalı sahəsidir. Poliqrafiya məhsullarının istehsal olunduğu müəssisə isə mətbəə adlanır. Adətən, poliqarfiya məhsullarının istehsalı zamanı 2 çap vasitəsindən istifadə olunur:

- ***Ofset üsulla çap;***
- ***Rəqəmsal çap.***

Bu iki çap üsulunun arasındakı fərqləri nəzərdən keçirək. Qeyd edək ki, eyni məhsulu hər iki üsulla çap etmək mümkündür. Ancaq iqtisadi baxımdan faydalı olması səbəbindən hər iki çap üsulu fərqlənir. **Ofset üsulla çap** zamanı çap olunacaq məhsul çapdan öncə bir neçə hazırlıq məhrələsindən keçməlidir. Bu cür çap ofset çap maşınları vasitəsilə həyata keçirilir və kimyəvi madddələr və lazerlə işlənmiş, nazik dəmirə köçürülmüş təsvirlər çap maşınına verilir. Bütün tirajın çapı üçün ən azı 4 belə dəmir vərəq tələb olunur. Bu zaman çap formasının hazırlanması əlavə vaxt, material, işçi qüvvəsi və təbii ki, pul tələb edir.

Ofset üsulu ilə çap zamanı sazlama prosesi deyilən bir etapdan da keçmək lazımdır. Bu zaman çap zamanı optimal keyfiyyəti əldə etmək üçün çap maşını uyğun vəziyyətə gətirilir. Sazlama prosesində kağız sərf olunur. Təbii ki, sərf olunan kağızın dəyəri də sifarişçinin hesabına ödənilir. Ancaq bir məqamı da qeyd edək ki, ofset üsulla çapda istifadə olunan boya rəqəmsal çapdakı boyadan daha ucuzdur. Ona görə də daha böyük tirajlarda ofset çap üsulundan istifadə edirlər.

**Rəqəmsal çapın** ən böyük üstünlüyü ondan ibarətdir ki, sifariş qısa müddətdə icra olunur. Burada çapdan əvvəlki metal formalardan və sazlama prosesindən istifadə olunmur, dizayn olunmuş məhsul birbaşa komputerdən çapa verilir. Rəqəmsal çapın daha bir üstünlüyü çapın təkcə kağıza deyil, müxtəlif formalı və qalınlıqlı materiallara (parçaya, kartona, plastikə, lentə və sair) çapa verilə bilməsidir.

Rəqəmsal çapın üstünlüyündən danışarkən, əlavə vəsait sərf etmədən məhsulun saxtalaşdırılmasından qorunması imkanlarını da qeyd etmək lazımdır. Bu üsulla çap edilmiş məhsulların (məsələn, etiketlər, qablaşdırma məhsulları və sair) qorunma səviyyəsi daha yüksəkdir. Rəqəmsal çapın yeganə çatışmazlığı yüksək tirajlar zamanı onun baha başa gəlməsidir. Rəqəmsal avadanlığın istismar və boya xərcləri ofset maşınından çox yüksəkdir.

## 2. Poliqrafiya məhsullarının növləri

Hazırda poliqrafiya sənayesinin istehsal etdiyi məhsulların çeşidi çox müxtəlifdir. Poliqrafiya məhsullarının aşağıdakı növləri var:

1. **Təqdimat xarakterli poliqrafiya məhsulları.** Bu məhsullara vizitkalar, qovluqlar, bloknotlar, zərflər, dəvətnamələr və sair daxildir. Bugün sadalanan məhsullarsız heç bir normal firmanın işini təsəvvür etmək mümkün deyil. Buna görə də təqdimat xarakterli poliqrafiya məgsullarını çox vaxt işgüzar poliqrafiya məhsulları da adlanıdırlar;

2. **Qəzet-kitab-jurnal məhsulları.** Adətən, bu məhsullar daha böyük və müasir avadanlıqlarla təchiz olunmuş poliqrafiya müəssisələrində çap olunur;

3. **Reklam məhsulları.** Bu məhsullar öz çeşidlərinin çoxluğuna görə fərqlənirlər. Bura vərəqələr, flayerlər, bukletlər, broşurlar, kataloqlar, etiketlər, plakatlar, afişalar, posterlər və sair daxildir. Reklamı yeni növlərindən olan POST (point of sales) materialları da reklam poliqrafiya məhsullarına aid etmək olar.

4. **Təqvim məhsulları.** Təqvimlər ən çoxfunksiyalı poliqrafiya məhsuludur. Bura vərəqli təqvimlər, divar və stolüstü təqvimlər və cib təqvimləri daxildir.

### 3. Azərbaycanda poliqrafiya məhsulları istehsalı sənayesinin mövcud durumu

Azərbaycanda nəşriyyat və poliqrafiya işinin çoxəsrlik tarixi var. Lakin poliqrafiyanın bir səanye sahəsi kimi formalaşması ötən əsrin əvvəllərindən başlayaraq sonuna kimi yüksələn xətlə davam etmişdir. 90-cı illərdən başlayaraq poliqrafiya sənayesi sahəsində yeni meyllər ortaya çıxmış, bu sahəyə özəl sektorun daxil olması ilə yeni texnoloji nailiyyətlərin tətbiqinə imkanlar açılmışdır. 2000-ci illərin əvvəllərində çap avadanlıqlarının yenilənməsi prosesi sürətlənmiş, ölkədə yüksək səviyyəli, nəfis kitab, jurnal, qəzet və digər məhsulların istehsalı üzrə ixtisaslaşmış orta və iri poliqrafiya müəssisələri yaranmağa başlamışdır.

Diaqram 1-in məlumatlarından da göründüyü kimi 2005-ci ildən 2015-ci ilə qədər bu sahədə fəaliyyət göstərən dövlət və qeyri-dövlət müəssisələrinin sayında 7-19 dəfə fərq var. Özəl sektorun bu sahəyə axını 2009-cu ilə qədər yüksəlmə trendi göstərib, 2009-cu ildə bügunə qədərki ən yüksək nəticə qeydə alınıb. Həmin il özəl sektora məxsus 184 müəssisə fəaliyyət göstərib. Lakin sonradan bu trend enməyə başlayıb. 2015-ci ildə 149 belə müəssisənin fəaliyyəti faktı qeydə alınıb[1].




[1] Mənbə: Dövlət Statistika Komitəsi

Poliqrafiya sənayesində məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı da 2005-ci ildən sonra enişli-çıxışlı bir trend nümayiş etdirmişdir. 2005-ci illərdə 403, 2006-cı ildə 456, 2007-ci ildə 424, 2008-ci ildə 459, 2009-cu ildə 370, 2010-cu ildə 394, 2011-ci ildə 425, 2012-ci ildə 475, 2013-cü ildə 484, 2014-cü ildə 549, 2015-ci ildə 592 fərdi sahibkar bu sahədə fəaliyyət göstərmişdir.

Bu sahədə istehsal olunmuş sənaye məhsulunun həcmi ölkə sənayesinin digər inkişaf etmiş sektorları ilə müqayisədə çox aşağıdır. Əgər 2005-ci ildə 23.1 milyon manat poliqrafiya məhsulu ilstehsal edilmişdisə, bu rəqəm 2011-ci ildə 45.4 milyon manat, 2015-ci ildə isə daha aşağı – 37.6 milyon manat olmuşdur. Bir başqa sözlə desək, 2005-ci ildə poliqrafiya sənayesi məhsulu cəmi səanye məhsulunun 0.27%-ni, 2011-ci ildə 0.1%-ni, 2015-ci ildə isə 0.2%-ni təşkil etmişdir.




Diaqram 2-dən də Azərbaycanda poliqrafiya səanyesinin həcminin çox kiçik olduğu məlum olur[2]. Ancaq rəsmi statistikanın real vəziyyəti olduğu kimi əks etdirmədiyini, bu sahədə gizli iqtisadiyyatın masştablarının kifayət qədər böyük olduğunu poliqrafiya sənayesində çalışan ayrı-ayrı özəl sektor nümayəndələri ilə apardığımız dərinləşdirilimiş müsahibələr təsdiq etsə belə, ölkəmizdə poliqrafiya məhsulları istehsalının həcminin kiçik olduğu danılmaz faktdır.

Rəsmi məlumatlara görə, bu sahədə 2013-2014-cü illərdə 2000 min nəfər, 2015-ci ildə 2100 nəfər işçi çalışıb, işçilərin orta aylıq əmək haqqı isə 2015-ci ildə 412.6 manat olub.

Son illər poliqrafiya sənayesində bir durğunluq nümayiş olunur ki, bu da daha çox dünya bazarında neftin qiymətinin düşməsi nəticəsində Azərbaycan iqtisadiyyatının həcminin kiçilməsi, ölkədə maliyyə sabitliyinin pozulması, idxal xammalının – kağızın, boyanın, dəmir lövhələrin və sair –

[2] Mənbə: Dövlət Statistika Komitəsi

qiymətlərinin dəfələrlə yüksəlməsi, eyni zamanda ölkə iqtisadiyyatının yüksək inhisarçılıq meylləri ilə izah olunmalıdır.

**Cədvəl 1. Xammal və hazır məhsul idxalı və icxracı ilə bağlı göstəricilər**[3]

| Məhsulların adı | İxrac | | | İdxal | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2016 | 2015-ci ilə nisbətən, faizlə | 2015 | 2016 | 2015-ci ilə nisbətən, faizlə |
| **Kağız və karton: kağız kütlədən, kağızdan və ya kartondan hazırlanan məmulatlar, min ABŞ dolları** | 4632.46 | 4 394.59 | 94.87 | 62 798.53 | 105 631.09 | 168.21 |
| **Çap kitablar, qəzetlər, reproduksiyalar və poliqrafiya sınayesinin digər məmulatları** | 99.64 | 115.96 | 116.38 | 26 606.76 | 10 228.87 | 38.44 |

Təəssüf ki, Dövlət Gömrük Komitəsi (DGK) qəzet və kitab kağızının idxalı ilə bağlı rəsmi məlumatları ayrı qrafa altında açıqlamır. Ancaq açıqlanan göstəricilərdən də müəyyən nəticə çıxarmaq mümkündür. İxrac olunan məhsullar daha çox kağızdan hazırlanan məhsullardır. İdxal isə əsasən xammal üzərində formalaşır. 2016-cı ildə "Kağız və karton: kağız kütlədən, kağızdan və ya kartondan hazırlanan məmulatlar"ın idxalı 105 631.09 milyon dollar olub ki, bu da 2015-ci illə müqayisədə 168% artım deməkdir.

## 4. Poliqrafiya işinin qanunvericilik bazası

Poliqrafiya müəssisələrinin fəaliyyətini tənzimləyən əsas qanunverici baza "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Qanun nəşriyyat işinin ümumi prinsiplərini müəyyən edir, nəşriyyat fəaliyyətinin təşkili və həyata keçirilməsi ilə əlaqədar nəşriyyat işinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini müəyyən edir.

---

[3] **Mənbə: Dövlət Gömrük Komitəsi**

Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

Qanuna görə, nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri nəşriyyat işi sahəsində sərbəstliyin təmin edilməsi və nəşriyyat işinin maddi-texniki bazasının, təşkilati, hüquqi və elmi əsaslarının möhkəmləndirilməsinə, milli kitab nəşrinin inkişafına yardım edilməsidir. Nəşriyyat işi sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

- *nəşriyyat işinin inkişafına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi;*
- *nəşriyyat işi sahəsində inhisarçılığın qarşısının alınması;*
- *əhalini, təhsil müəssisələrini və kitabxanaları latın əlifbası ilə nəşr olunmuş kitablara təmin etmək məqsədilə xüsusi dövlət proqramının hazırlanması və həyata keçirilməsi;*
- *Azərbaycan xalqının klassik irsi və milli-mənəvi sərvətləri sayılan əsərlərin dövlət sifarişi əsasında nəşrinin həyata keçirilməsi, bu məqsədlə güzəştli kreditlər və dövlət tərəfindən qrantların ayrılması;*
- *nəşriyyatların maddi-texniki bazasının genişləndirilməsinin, poliqrafiya sənayesinin inkişafının, nəşriyyat məhsullarının satışının stimullaşdırılması və kənd yerlərində kitab yayımının təmin edilməsi;*
- *idarə, müəssisə və təşkilatların dövlət dilində olan zəruri nəşrlərlə təmin edilməsi;*
- *milli-mədəni sərvətləri əks etdirən kitabların dünya miqyasında təbliği məqsədilə onların tərcüməsi, nəşri və yayılmasının stimullaşdırılması;*
- *mətbuatın dövlət statistikasını aparmaqla, əhalinin və bazarın nəşriyyat məhsullarına olan tələbatını, ehtiyaclarını və təkliflərini öyrənməklə nəşriyyatların işinin istiqamətləndirilməsi;*
- *ixtisaslaşmış nəşriyyatlar arasında qapalı tender keçirməklə dövlət sifarişli dərsliklərin nəşrinin təmin edilməsi;*
- *uşaq ədəbiyyatı, dərslik, elmi-texniki ədəbiyyat, tərcümə ədəbiyyatı, lüğət və ensiklopediyaların, yazılı və şifahi mədəniyyət abidələrinin nəşrinə əlavə güzəştlərin müəyyən edilməsi;*
- *milli universal ensiklopediya nəşrinin dövlət vəsaiti hesabına həyata keçirilməsi;*
- *qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının fəaliyyəti, habelə səhiyyə, elm və əhalinin sosial müdafiəsi ilə bağlı nəşriyyat məhsullarının istehsalının dövlət sifarişi əsasında həyata keçirilməsi;*
- *Azərbaycan Respublikasını xarici ölkələrdə təbliğ etmək məqsədilə xarici dillərdə buraxılan zəruri nəşrlərin dövlət tərəfindən maliyyələşdirilməsi.*

Qanuna görə, poliqrafiya müəssisələri, istifadəsində poliqrafik, surətçıxarma və ya müvafiq texniki vasitələr olan digər hüquqi və fiziki şəxslər nəşriyyat məhsullarını istehsal edə bilərlər. Nəşriyyat məhsullarını istehsal, edən poliqrafiya müəssisələri nəşriyyatdan və naşirlərdən daxil olan sifarişlər əsasında nəşriyyat məhsullarının istehsalını və buraxılışını həyata keçirə bilərlər.

Sifarişlərin yerinə yetirilməsinin şərtləri və müddəti tərəflər arasındakı müqavilə ilə müəyyən edilir. Nəşriyyat məhsullarını istehsal edən poliqrafiya müəssisəsi poliqrafiya sahəsində dövlət standartlarına və beynəlxalq standartlara, texniki şərtlərə və normativ hüquqi aktlara əməl etməlidir. Qanunvericilikdə nəzərdə tutulmuş hallardan başqa nəşriyyat məhsulunu istehsal edən poliqrafiya müəssisəsi nəşrin hazırlanmış tirajını və ya onun bir hissəsini, nəşrin orijinal nüsxəsini, maket və fotoları və ya çap formalarını sifarişçinin icazəsi olmadan başqasına verə, habelə nəşrin əlavə və təkrar tirajını çap edə bilməz.

Qanuna görə nəşriyyat işinin maliyyələşdirilməsi dövlət büdcəsindən qanunvericilikdə müəyyən edilmiş ayırmalar, təsisçinin vəsaiti, sponsorun vəsaiti, hüquqi və fiziki şəxslərin ianələri, dövlət və ictimai təşkilatlardan ayrılmış qrantlar və nəşriyyatların (naşirlərin) sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlər hesabına həyata keçirilə bilər.

## 5. Azərbaycanda poliqrafiya sənayesinin səmərəli inkişafına mane olan amillər

Hazırda poliqrafiya məhsulları istehsalı sənayesi bir çox obyektiv və subyektiv amillər, inzibati maneələr ucbatından səmərəli fəaliyyət göstərə bilmir. İnternetin sürətli inkişafının təşviq etdiyi elektron KİV-lər və elektron kitablar obyektiv problemlər sırasındadır. Bununla yanaşı, poliqrafiya məhsullarının istehsalı əlahiddə bir biznes sahəsi deyil, ölkə biznes mühitinin, bütövlükdə iqtisadiyyatın yaşadığı problemlər bu sənaye sahəsinin də səmərəli fəliyyətinə mane olur. Xüsusilə, büdcə gəlirlərinin ixtisarı sektorlar üzrə sifarişlərin həcminin azalmasına rəvac verib. İqtisadi aktivliyin azalması biznesi öz fəaliyyət starategiyalarını yenidən nəzərdən keçirməyə vadar edib.

Poliqrafiya müəssisələrinin rəhbərləri arasında apardığımız dərinləşmiş müsahibələrin nətciələrinə əsasən deyə bilərik ki, böhran dövründə mövcudluqlarını qorumaq üçün onların bəziləri istehsal xərclərini azaltmağa (qənaət), bəziləri müştəri cəlb etmək üçün əlavə xidmətlər təqdim etməyə, bəziləri isə müxtəlif vasitələrlə əmək məhsuldarlığını yükəltməyə çalışırlar. Ancaq qeyri-sabit maliyyə sektoru və milli valyuta şəraitində həm xammal, həm də texnologiya baxımından idxaldan asılı olan bir sahənin fəaliyyətini davam etdirməsinin çətinliyini bütün sorğuya cəlb olunanlar etiraf ediblər. Poliqrafiya məhsullarının istehsalına təsir edən faktorlar müsahibələrdə səsləndirilmiş fikirlər əsasında ümumləşdirilərək Sxem 1-də verilib.

Sxem1. Poliqrafiya məhsulları istehsalını müəyyən edən amillər




Dərinləşdirilmiş müsahibələrin nəticələrinin ümumiləşdirilməsi, qanunvericiliyin, toplanılmış statistik bazanın və beynəlxalq təcrübənin öyrənilməsi əsasında Azərbaycanda poliqrafiya sənayesnin inkişafına mane olan amilləri aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

6 *Qəzet, kitab və jurnalların tirajının az olması;*

7 *Reklam bazarının zəif inkişafı;*

8 *Yayım nöqtələrinin (qəzet köşklərinin) azalması, səyyar satışın qadağan olunması, poçtların ənənəvi funksiyasını yerinə yetirməməsi;*

9 *İqtisadiyyatın bütün sahələrində qərarlaşmış yüksək inhisarçılığın biznesin dövlət sifarişlərindən yararlanması imkanlarını süni şəkildə məhdudlaşdırması;*

10 *Bu sahəyə vergi və gömrük güzəştlərinin verilməməsi, ağır vergi yükü;*

11 *Sahibkarların təşkilatlanmaması;*

12 *Xammalın və çap avadanlıqlarının xaricdən idxal olunması və çox baha başa gəlməsi;*

13 *Poliqrafiya sahəsində standartların olmaması, qanunvericilik bazasının qeyri-təkmilliyi.*

**5.1 Qəzet, kitab və jurnalların tirajının aşağı olması**

Rəsmi statistikaya görə, Azərbaycanda 5000-ə yaxın KİV müvafiq dövlət orqanında uçota götürülmüş və ya qeydiyyatdan keçmişdir. Təsis edilən KİV-lər müxtəlif siyasi, ictimai mövqeli təşkilatlara, özəl qurumlara və fiziki şəxslərə məxsusdur. Ölkədə 40-a yaxın gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzet nəşr olunur. 80-dən artıq elmi-praktiki, ictimai-siyasi, sosial-iqtisadi məsələləri, uşaq və qadın problemlərini işıqlandıran və əyləncə xarakterli jurnal çıxır. Azərbaycanda 20-yə yaxın informasiya

agentliyi ölkədə və dünyada baş verən hadisələrlə bağlı müntəzəm və çeşidli məlumat yayır. Bölgələrdə 100-ə yaxın qəzet və jurnal nəşr olunur[4].

Ancaq müşahidələr onu deməyə əsas verir ki, rəsmi statistika real deyil, ölkədə 40-a yaxın gündəlik qəzetin çap olunması həqiqəti əks etdirmir. Gündəlik qəzetlərin tirajı 2500-3000 arası dəyişir ki, bu da 10 milyon əhalisi olan Azərbaycan üçün çox kiçik rəqəmdir. Qəzet biznesinin zəif olması bir tərəfdən xammal baxımından idxaldan asılılıqla izah olunsa da, digər tərəfdən müstəqil qəzetlərin yoxluğu, olkədəki biznes mühitinin münbit olmaması həlledici faktorlardandır.

Eyni neqativ meyllər jurnal və kitab bazarı sahəsində də müşahidə olunur. Burda obyektiv amil kimi internetin və elektron kitab bazarının inkişafını və müstəqillikdən sonra kitaba olan marağın azalmasını qeyd etmək mümkündür.

Qəzet-jurnal-kitab biznesinin aşağı səviyyədə olması paralel olaraq poliqrafiya sənayesinin normal inkişafına mane olur, bu sektorda yeni texnologiyanın tətbiqini təşviq etmir.

### 5.2 Reklam bazarının zəif inkişafı

Dünya praktikasında da mətbuatın gəlirlərinin çox əhəmiyyətli hissəsi reklam gəlirlərinin payına düşür. Məsələn, İngiltərədə bir ildə ölkə üzrə verilən reklamın 23-25 faizi televiziya və mətbuatın payına düşür. 30 milyard dollara yaxın olan reklam bazarının təxminən 6 milyard dolları media strukturlarına xərclənir. Bu qədər vəsaitin 48 faizi mətbuat orqanlarının, 52 faizi isə televiziyanın payına düşür. Türkiyədə isə reklam bazarının həcmi 5 milyard dollar təşkil edir. Reklam sifarişlərindən mətbuatın aldığı illik pay təxminən 300 milyon dollardır. İnkişaf etmiş ölkələrdə mətbuatın əsas gəlir mənbəyi reklamlar, bir də nəşrin satışından əldə edilən gəlirlərdir. Belə ölkələrdə qəzetlərin gəlirlərinin 85 faizi reklamlardan, 15 faizi isə nəşrin satışının reallaşdırılmasından asılı olur. Almaniyada da medianın gəlirlərinin 40 faizi reklam hesabına olur[5].

Beynəlxalq təcürübəyə görə, ölkədə reklam bazarı ən azı ÜDM-in 1 faizi qədər olmalıdır. Nəzərə alsaq ki, rəsmi statistik göstəricilərə görə, 2016-cı ildə ölkədə ümumi daxili məhsul 60 393,6 milyon manat olub[6], o zaman ölkədə reklam bazarının həcmi 600 milyon manatlıq olmalı idi. Statistikaya görə, 2015-ci ildə ölkədə reklam fəaliyyətindən əldə olunan gəlir 55 850,9 min manat olub. Onun 33 044.0 min manatı reklamın yayımlanmasından əldə olunan gəlirdir. Həmin gəlirin 3 792,8 min manatı küçədə və yol ətrafı zonalarda yayımlanan reklamlardan, 3 283 min manatı ictimai nəqliyyat vasitələrində yayımlanan reklamdan, 25 969,1min manatı isə kütləvi informasiya vasitələrində yayımlanan reklamdan əldə olunub.

Kütləvi informasiya vasitələrində yayımlanan reklamın isə faiz ifadəsində bölgüsü Diaqram 3-də verilib. Bu, mütləq ifadədə televiziyalar - 19 836,0 min manat, radio – 3 094,3 min manat, internet – 1 565,6 min manat, qəzet və jurnallar – 1 408,7 min manat, poçt göndərişləri - 64,5 min manat deməkdir.

[4] Mənbə: Xarici İşlər Nazirliyi
[5] http://www.anl.az/down/meqale/sherq/2015/yanvar/471108.htm
[6] http://www.stat.gov.az/source/system_nat_accounts/




**5.3 Yayım nöqtələrinin (qəzet köşklərinin) azalması, səyyar satışın qadağan olunması, poçtların ənənəvi funksiyalarını yerinə yetirməməsi**

Ölkədə qəzet yayımı "Qasid" ASC, "Qaya" mətbuat yayımı və "Azərmətbuatyayımı" ASC tərəfindən həyata keçirilir. "Qasid" ASC yayımı Bakıda, "Qaya" həm Bakıda, həm də regionlarda, "Azərmətbuatyayımı" ASC isə regionlarda həyata keçirir. 2000-ci illərin əvvəllərindən başlayaraq Bakıdan qəzet köşklərinin yığışdırılmasına başlanılıb ki, bu da qəzetlərin yayımı göstəricilərini bir az da aşağı salıb. Təkcə "Qasid"in 2001-2014-cü il aralığında Bakıdan 150-yə yaxın qəzet köşkünü götürüblər. "Qaya" Mərbuat Yayımının götürülən köşklərinin bəziləri geri qaytarılsa da, bu tam şəkildə həyata keçirilməyib.

Hökumətdən köşklərin götürülməsini onların standartlara uyğun gəlməməsi, şəhərin görünüşün korlaması ilə izah ediblər. Ancaq köhnə köşklərin yerinə qoyulan təzələri çox təəssüf ki, mətbuat yayımı firmalarının tabeçiliyinə verilmir. Bu prosesi Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamenti (BŞTXD)həyata keçirir. Yeni köşklərdə qəzet satışı arxa plandadır. Burada müxtəlif ərzaq məhsulları, siqaret və digər mallar satılır.

Mqstəqillik dövründə qəzet satışının yeni bir forması meydana çıxmışdı və böyük uğur qazanmışdı ki, bu da səyyar qəzet satışı idi. Lakin 2014-cü ilin yanvarından Bakı şəhərində səyyar ticarət, o cümlədən qəzet satışı qadğan olundu.

Qərarı qəbul eləmiş BŞTXD qadağanın “Bakının abadlaşdırılması, gözəlləşdirilməsi, dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi və şəhərdə dünya standartlarına uyğun ən müasir qəzet və jurnalların satış köşklərinin quraşdırılması nəzərə alınaraq”[7] həyata keçirildiyini bildirmişdi.

Poçt sistemi də tarixən qəzet yayımının, xüsusilə, abunə sisteminin qurulmasında yaxından iştirak edib. Lakin müstəqillik dövründə poçt hər ötən il bər qədər də bu funksiyasının icrasından uzaqlaşıb. Təbii ki, buna qəzet satışı və abunə göstəricilərinin ildən-ilə azalması həlledici təsir göstərib.

### 5.4 İqtisadiyyatın bütün sahələrində qərarlaşmış yüksək inhisarçılığın biznesin dövlət sifarişlərindən yararlanması imkanlarını süni şəkildə məhdudlaşdırması

Azərbaycan yüksək inhisarlaşmış bir iqtisadiyyata malik olduğundan müstəqil poliqrafiya müəssisələri böyük dövlət sifarişlərindən həmişə kənarda qalıb, bu sahədə tenderlər şəffaf keçirilməyib, sifarişlər əksər hallarda məmurların himayəsində olan nəşriyyat və mətbəələrə verilib. Dərsliklərin nəşri ilə bağlı Təhsil Nazirliyinin (TN) keçirdiyi tenderlərdə də qaranlıq məqamlar çoxdur.

Rəsmi statistikaya görə, 2013-cü ildə büdcədən dərslik çapına 8.6 milyon manat, 2014-cü ildə 8 milyon manat ayrılıb. 2015-ci ildə isə  bu məqsədlə 8,5 milyon manat nəzərdə tutulub. Bu sahəyə ən az vəsait 2006-2007-ci illərdə ayrılıb ki, bu da uyğun olaraq 6 və 7 milyon manat təşkil edib. Tender.gov.az saytında keçirilən müsabiqə reyestrlərinin arxivini araşdırarkən məlum olur ki, 2010-cu ildə nazirliyin keçirdiyi 1500 satınalmanın yalnız 3-ü dərslik çapı üçün nəzrdə tutulub və bu işə cəmi 109 776 manat sərf edilib. 40 176 manatlıq sifariş "Ərgünəş" Fərdi Müəssisəsi (xüsusi dərsliklərin nəşri), 19 980 manat “Təhsil Texnologiyaları Mərkəzi” (ibtidai sinif yaşlı fiziki qüsurlu uşaqlar üçün elektron dərsliklər və zəruri tədris vəsaitlərinin standartlarının müəyyən edilməsi və işlənib hazırlanması xidmətləri haqqının ödənilməsi), 49 620 manat yenə "Ərgünəş" FM-ə 12 adda 1 070 nüsxə tirajla xüsusi və brayl əlifbası ilə dərsliklərin nəşri və capı üçün verilib. Nazirlik əlavə olaraq kitab çapına 29 900 manat (“NEO Nəşriyyat Evi” MMC), test kitablarının nəşrinə 29 419 manat ("Araz-GR" MMC), test kitabçalarının çapı üçün kağızların alınmasına 52 981 manat ("Blank Servis" MMC, "Halal-P" Firması), kitabların alınmasına 4 248 manat ("Ərgünəş" FM) sərf edib. Həmin il Milli Elmlər Akademiyası (MEA), Maliyyə Nazirliyi (MN), Mədəniyyət və Turizm Nazirliyi (MTN) kitablara az qala TN-dən çox pul xərcləyib. Söhbət müsabiqə reyestlərində əksini tapan məlumatlardan gedir.

2011-ci ildə nazirlik cəmi iki dərsliyin tenderini keçirib - sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika Xüsusi İnternat məktəbinin şagirdlərinə iri şriftlər və brayl əlifbası ilə xüsusi dərsliklərin nəşr və çap işləri "Ərgünəş" FM-dən üst-üstə 92 707 manata satın alınıb. Həmin il nazirlik üzrə ümumilikdə 3 400-dən artıq tender keçirilib, əksəriyyəti də alış-verişlə bağlıdır. 2012-ci ildə “Şahmat 2” və “Şahmat 3” dərsliklərinin çap işlərinin satın alınmasına 45 574 manat ("Nasir NPM" MMC), yenə sağlamlıq imkanları məhdud uşaqlar üçün dərsliklərə 91 940 manat sərf edilib və bu işlər üçün podratçı "Ərgünəş" FM seçilib. Nazirlik üzrə keçirilən tender sayı isə 3 500 civarında olub.

2013-cü ildə “İngilis dili” dərslik komplektinin hazırlanması işlərinin satın alınması 71 082 manat ("Təhsil Nəşriyyat Poliqrafiya" MMC), orta ixtisas təhsili müəssisələri üçün dərslik, dərs vəsaitləri,

---

[7] http://news.milli.az/society/239566.html

metodiki vəsaitin çap və onların elektron versiyalarının hazırlanması 199 134,44 manat, "Şahmat-2" və "Şahmat-3" elektron tədris vəsaitləri (disklərin) də 259 151 manat tutub, hər iki iş "Avanqard E.H." MMC-yə həvalə edilib. Nazirlik üzrə keçirilən tender sayı 2000-dən çoxdur.

2014-cü ildə "Azərbaycan dili" dərslik komplektinin hazırlanması 41 800 manat ("Altun-Kitab"MMC), "Kimya/Ximiya" dərslik komplekti 39 000 manat ("Aspoliqraf LTD" MMC), "Riyaziyyat/Matematika" dərslik komplekti 99 561 manat ("Şərq-Qərb" ASC), "Ədəbiyyat" dərslik komplektinin hazırlanması da 41 210 manat ("Bakı" nəşriyyatı) aparıb. Nazirliyin bütün alış-verişlərinə dair keçirilən tender sayı isə 1 100 civarındadır. TN 2015-ci ildə 4 dərsliyin çapına (adları göstərilməyib) 260 238 manat sərf edib və podratçılar "Radius" MMC, "Şərq-Qərb" ASC, "Bakı Nəşriyyatı" olub. "Ümumi tarix" dərslik komplektinin hazırlanması üçün də 61 600 manatlıq sifariş "Aspoliqraf LTD" MMC-yə verilib. Bu ilin 6 ayında "Kimya" və "Fizika" dərslik komplektinin nəşrinə tenderlərdə çəkilən xərc 115 827 manat təşkil edib.

Belə görünür ki, nazirlik büdcədən ayrılan vəsaitlərin əsas hissəsini tenderlərdə qanuni yolla xərcləyir, amma kitab çapına nəzərdə tutulan pulların cüzi bir hissəsi tender predmeti olub. Reyestrlərdən belə qənaət yaranır ki, dərslik çapına az vəsait sərf edilir. Ya da məlumatların reyestrlərin arxivində əksini tapmaması 8 milyonluq müqavilələrin tenderdən kənarda bağlandığı rəyi yaradır. Bu vəsaitlərin yalnız bir neçə yüz mini müsabiqə reyestrlərində əksini tapıb.

Ümumiyyətlə, mətbuatda dərc olunan informasiyalarda hər il xeyli adda və sayda kitab çapı ilə bağlı məlumat verilsə də saytda bunların cüzi bir hissəsinə rast gəlinir. Ya nazirlik göstərdiyi kimi dərsliklərə 8 milyonları xərcləmir, ya da verilən vəsaitlərin hamısı üzrə tender keçirilmir, müəyyən işlər satınalma yolu ilə rəsmiyyətə salınır, qalanlar da müsabiqəsiz sifariş edilir. Əgər dərsliyin müddəti 4 ildirsə, onda hər il sərasər niyə dərslik çap olunur və bu işi sadaladıqlarımızdan başqa daha hansı nəşriyyatlar həyata keçirir, satınalma təşkilatının saytında buna cavab yoxdur. Göründüyü kimi, nazirliyin podratçıları da çox deyil, cəmi bir neçə nəşriyyatla işləyirlər[8].

### 4.5 Poliqrafiya sənayesinə vergi və gömrük güzəştlərinin verilməməsi

Poliqrafiya elə bir spesifik sahədir ki, dünyanın əksər ölkələrində bu sənaye sektoruna dövlət tərəfindən dəstəkləyici tədbir kimi müxtəlif vergi və gömrük güzəştləri nəzərdə tutulur. Azərbaycanda qəzet kağızı uzun müddət ƏDV-dən azad olunub.

Vergi Məcəlləsinin 164.2-ci maddəsinin tətbiqi məqsədilə[9] Azərbaycan Respublikası Nazirlər Kabinetinin (NK) "Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" 31.01.2005-ci il tarixli, 11 nömrəli qərarına (əlavə və dəyişikliklərlə) əsasən Xarici İqtisadi Fəaliyyətin Mal Nomenklaturasının (XİFMN) 4801000000 mal mövqeyində sinifləşdirilən

[8] http://www.bizimyol.info/news/83548.html

[9] Vergi Məcəlləsi, maddə 164.2. Müvafiq icra hakimiyyəti orqanı konkret sahənin inkişafını təmin etməklə konkret dövr üçün nəzərdə tutulan, istehsal ehtiyaclarını yerli xammal hesabına ödəmək mümkün olmadıqda, istehsal təyinatlı xammal və müasir texnologiyanı təmin edən avadanlıqların idxalını ƏDV-dən azad edə bilər. *Qüvvədən düşüb.*

qəzet kağızının idxalı əlavə dəyər vergisinin (ƏDV) tətbiqindən 01 yanvar 2016-cı il tarixinədək olan müddətə azad edilmişdi.

Lakin “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 20.10.2015-ci il tarixli 1384-IVQD nömrəli Qanununun 1.18.3-cü maddəsi ilə Vergi Məcəlləsinin 164.2-ci maddəsi ləğv edilmiş və 01 yanvar 2016-cı il tarixindən etibarən Nazirlər Kabinetinin məlum qərarı hüquqi qüvvəsini itirərək XİFMN-in 4801000000 mal mövqeyində sinifləşdirilən qəzet kağızı ƏDV-yə cəlb olunur.

Vergi Məcəlləsinin 164.1-ci maddəsində göstərilir ki, “Malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur”. Məcəllənin 164.1.7-ci maddəsində isə müəyyən edilib ki, kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısının bütün növləri üzrə dövriyyələr, mətbu kütləvi informasiya vasitələri məhsulları istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla) ƏDV-yə cəlb edilmir.

Dövlət Gömrük Komitəsi (DGK) iddia edir ki, Vergi Məcəlləsinin 164.1.7-ci maddəsi kütləvi informasiya vasitələri məhsullarının idxalını əhatə etmir, yalnız belə məhsulların satışı üzrə dövriyyələrin ƏDV-dən azad olunması müəyyən edilir. Komitə bunu əsas gətirərək idxal olunan qəzet kağızına 18% həcmində ƏDV tətbiq edir.

“Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 90.1-ci maddəsinə əsasən normativ hüquqi aktın məzmununda qeyri-müəyyənliklər və fərqlər, habelə tətbiqi təcrübəsində ziddiyyətlər aşkar edildikdə həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən şərh olunmalıdır.

Qeyd edək ki, KİV məhsullarının və idxal olunan qəzet kağızının ƏDV-yə cəlb olunmasından büdcəyə daxil olan illik vəsit o qədər də yüksək deyil, 500 min manatdır.

İdxal qəzet kağızının (Qəzet kağızı, rulonlarda və ya vərəq şəklində: 4801 00 000 0) gömrük rüsumu isə 0.5%-dir[10]. İdxal olunan hazır poliqrafiya məhsulları isə aşağıdakı şəkildə gömrük rüsumlarına cəlb olunur.

**Cədvəl 2. Hazır poliqrafiya məhsullarının gömrük rüsumlarının dərəcələri**

| XİF ƏN-ın kodu | Mal mövqelərinin adları | Əlavə ölçü vahidi | Tarif dərəcəsi (Gömrük dəyərinə %-lə və ya ölçü vahidinə görə ABŞ dol. ilə) |
|---|---|---|---|
| **4901** | Çap kitablar, broşüralar, vərəqlər və anoloji çap materiallar, ayrı-ayrı vərəqlər şəklində broşüraya salınmış: | | |

[10] http://www.e-qanun.az/framework/2691

| | | | |
|---|---|---|---|
| **4901 10 000 0** | - ayrı-ayrı vərəqlər şəklində, qatlanmış və ya qatlanmamış | - | **3** |
| | - digərləri: | | |
| **4901 91 000 0** | -- lüğətlər və ensiklopediyalar və onların silsilə buraxılışları | - | **3** |
| **4901 99 000 0** | -- digərləri | - | **3** |
| **4902** | Qəzetlər, jurnallar və digər dövri nəşrlər, illüstrasiyalı və ya illüstrasiyasız, reklam materialı olan və ya olmayan: | | |
| **4902 10 000 0** | - həftədə dörd dəfədən az olmamaqla nəşr edilən | - | **3** |
| **4902 90** | - digərləri: | | |
| **4902 90 100 0** | -- həftəlik nəşr edilən | - | **3** |
| **4902 90 300 0** | -- aylıq nəşr edilən | - | **3** |
| **4902 90 900 0** | -- digərləri | - | **3** |
| **4903 00 000 0** | Şəkilli uşaq kitabları, uşaqlar üçün rəsm və rəngləmə albomları | - | **0,5** |
| **4904 00 000 0** | Çap olunmuş və ya əlyazma notları, kitab şəklində bağlanmış və ya bağlanmamış, illüstrasiyalı və ya illüstrasiyasız | - | **0,5** |
| **4905** | Coğrafi, hidroqrafik xəritələr və istənilən növlü anoloji xəritələr, çap edilmiş atlaslar, divar xəritələri, topoqrafik planlar və qlobuslar daxil olmaqla: | | |
| **4905 10 000 0** | - qlobuslar | - | **0,5** |
| | - digərləri: | | |
| **4905 91 000 0** | -- kitab şəklində | - | **0,5** |
| **4905 99 000 0** | -- digərləri | - | **0,5** |
| **4906 00 000 0** | Arxitektura, mühəndislik, sənaye, kommersiya, topoqrafiya və ya analoji məqsədlər üçün planlar və çertyojlar, orijinal kimi təqdim edilən, əllə işlənilən; əlyazması mətnləri; həssas kağızda fotoreproduksiyalar və yuxarıda adları sadlanan malların surətləri (sürətçıxardan kağız ilə) | - | **0,5** |
| **4907 00** | Poçt markaları, dövlət rüsumu markaları və ya anoloji markalar, vaxtlı (ödənilməmiş), nəzərdə tutulduğu ölkədə cari və ya yeni buraxılışı olan və qəbul nominal qiymətili və ya qiymətili olacaq markalar; gerbli kağızlar; çek kitabçaları; banknotlar; aksiyalar, istiqrazlar və analoji qiymətli kağız formaları: | | |
| **4907 00 10** | - poçt markaları, dövlət rüsumu markaları və analoji markalar: | | |
| **4907 00 101 0** | -- aksizli malların aksiz markaları | - | **5** |
| **4907 00 109 0** | -- digərləri | - | **5** |
| **4907 00 300 0** | - banknotlar | - | **0,5** |
| **4907 00 900 0** | - digərləri | - | **5** |
| **4908** | Köçürmə şəkillər (dekalkomaniya): | | |
| **4908 10 000 0** | - köçürmə şəkillər (dekalkomaniya), şüşələnən | - | **15** |
| **4908 90 000 0** | - digərləri | - | **15** |
| **4909 00** | Çap olunmuş və ya illüstrasiyalı poçt açıqcaları; təbrik, müraciət və ya bildiriş çap olunmuş kartoçkalar, illüstrasiyalı və ya illüstrasiyasız, konvertlə və ya konvertsiz, bəzəkli və ya bəzəksiz: | | |
| **4909 00 100 0** | - çap olunmuş və ya illüstrasiyalı poçt açıqcaları | - | **15** |
| **4909 00 900 0** | - digərləri | - | **15** |

| | | | |
|---|---|---|---|
| **4910 00 000 0** | Bütün növ çap təqvimləri, qoparılan təqvimlər daxil olmaqla | - | **15** |
| **4911** | Digər çap məhsulları, çap reproduksiyaları və fotoqrafiyaları daxil olmaqla: | | |
| **4911 10** | - ticarət reklam materialları, mal kataloqları və analoji məhsullar: | | |
| **4911 10 100 0** | -- mal kataloqları | - | **15** |
| **4911 10 900 0** | -- digərləri | - | **15** |
| | - digəri: | | |
| **4911 91** | -- reproduksiyalar, çertyojlar və fotoqrafiyalar: | | |
| **4911 91 100 0** | --- qatlanmamış vərəqlər (ticarət reklam materialından başqa), bir illüstrasiya və ya şəkillə, mətnsiz və imzasız, kitablar və ya digər dövri nəşrlər üçün nəzərdə tutulmuş və müxtəlif ölkələrdə bir və ya bir neçə dildə nəşr edilən | - | **15** |
| **4911 91 800 0** | --- digərləri | - | **15** |
| **4911 99 000 0** | -- digərləri | - | **15** |

## 5.6 Poliqrafiya sahəsində çalışan sahibkarların təşkilatlanmaması

Poliqrafiya sahəsində çalışan özəl sektor təmsilçilərinin təşkilatlanaraq assosiasiyalarda, birliklərdə birləşməsi prosesi çox zəifdir. Rəsmi statistikaya görə, poliqrafiya sənayesi sahəsində fəaliyyət göstərən 157 hüquqi şəxs (onlardan 8 dövlət, 149 özəl) və 592 fərdi sahibkarın[11] cəmi 1 assosiasiyası var. Qeyd edək ki, müşahidələr və bu sahədə çalışan özəl sektor təmsilçiləri ilə aparılmış müsahibələr göstərir ki, statistik rəqəmlər reallığı əks etdirmir, real rəqəm açıqlanandan xeyli çoxdur.

Poliqrafların yeganə peşə birliyi - "Naşirlər və Poliqrafçılar" İctimai Birliyi (Assosiasiyası) 2012-ci il martın 2-də təsis olunub. Birliyi "Təhsil Nəşriyyat-Poliqrafiya", "Aspoliqraf LTD", "Çağdaş As", "Azərnəşr", "Elm və təhsil", "El", "Qismət", "Avrasiya-press", "Nağıl evi", "Şirvannəşr" və digər nəşriyyatların rəhbərləri təsis ediblər.

Qurumun 9 nəfərdən ibarət heyəti var, "Təhsil Nəşriyyat-Poliqrafiya" birliyinin baş direktoru Bəhruz Axundov assosiasiyanın idarə heyətinin sədridir.

Çox təəssüf ki, assosiasiyanın fəaliyyəti kağız üzərindədir. Birlik yarandığı gündən poliqrafiya sahəsindəki problemlərin ictimailəşdirilməsi, dövlət qurumlarının diqqətinə çatdırılması, bu sahədə müvafiq müzakirələrin aparılması ilə bağlı heç bir cəhd göstərməyib.

## 5.7 Poliqrafiya sahəsində standartların olmaması, qanunvericilik bazasının qeyri-təkmilliyi

Hazırda Azərbaycanda poliqrafiya və nəşriyyat işilə qismən əlaqəli yeganə dövlət standartı 2013-cü ildə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən (SMPDK) təsdiq edilmiş **AZS 754-2013** "İnformasiya, kitabxana və nəşriyyat işi üzrə standartlar sistemi. Biblioqrafik yazı. Biblioqrafik təsvir. Ümumi tələblər və tərtib qaydaları"ıdır.

---

[11] Mənbə: Dövlət Satistika Komitəsi. 2015-ci ilin sonuna olan məlumat

AZS 754-2013 "İnformasiya, kitabxana və nəşriyyat işi üzrə standartlar sistemi. Biblioqrafik yazı. Biblioqrafik təsvir. Ümumi tələblər və tərtib qaydaları" dövlət standartı sənədin, onun bir hissəsinin və ya sənədlər toplusunun biblioqrafik təsvirinin tərtibi qaydası (biblioqrafik təsvirin ünsürləri və sahələrin məcmusu, onların ardıcıllıqla verilməsi, ünsürlərin düzgün təqdim edilməsi, ixtisarların düzgün verilməsi) və ümumi tələbləri müəyyən edir. Standart kitabxanalar, elmi-texniki informasiya orqanları, dövlət biblioqrafiya orqanları, **naşirlər**, biblioqrafik fəaliyyəti həyata keçirən digər təşkilatlar tərəfindən tərtib edilən sənədlərin təsvirində tətbiq edilir.

Standartların olmasının bir çox müsbət tərəfləri var ki, onları aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- **Standart hər şeydən əvvəl işin icraçısı ilə sifarişçi arasında meydana çıxan münaqişələrin və mübahisələrin tənizmlənməsi üçün baza rolunu oynayır;**
- **Rənglərin kolorimetrik[12] parametlər üzrə istifadəsinə və nəşr olunancaq materialların standarta uyğun müəyyənləşdirilməsinə kömək edir;**
- **İstehsalın bütün mərhələlərini vahid məlumatlar əsasında bir zəncir üzrə əlaqələndirilməsinə imkan verir;**
- **Rənglərin idarə olunması ilə bağlı Color management və CIP/PDF-X sistemlərinin geniş masştablı tətbiqi imkanlarını yaradır;**
- **Müəyyən olunmuş normativ xarakteristikalar əsasında çap maşınlarının tez bir vaxtda işlək vəziyyətə gətirilməsi imkanlarını təmin edir;**
- **Texnoloji prosesin sənədləşdirilməsi mümkün olur. Məsələn, proseslərin təsvirini verən, onların yerinə yetirilməsi vaxtları və materialların sərfi normalarını nəzərdə tutan texnoloji xəritənin hazırlanması həyata keçirilir.**

Hazırda poliqrafiya texnologiyaları sahəsində 80-ə yaxın beynəlxalq standart fəaliyyət göstərir. Onların əksəriyyəti ISO-nun (Beynəlxalq Standartlaşdırma Təşkilatı) hazırladığı poliqrafiya standartlarıdır. Bugün ölkəmizdə poliqrafiya sahəsində heç bir ISO standartı milli standart kimi qəbul edilməyib. Biz bu sahədə təkcə aparıcı Qərb ölkələrindən deyil, qonşu Rusiyadan, Ukraynadan və Qazaxıstandan da geri qalırıq. Bu ölkələrdə dövlətin maliyyə dəstəyi ilə artıq QOST standartlarından qismən də olsa imtina edərək, beynəlxalq standartlar əsasında yeni normativ baza formalaşdırıblar.

Hazırda ən çox tətbiq olunan ISO standartları aşağıdakılardır:

- ***ISO 12647-1:2004** — Process control for the production of half-tone colour separations, proof and production prints — Part 1: Parameters and measurement methods;*
- ***ISO 12647-2:2004/Amd 1:2007** — Process control for the production of half-tone colour separations, proof and production prints — Part 2: Offset lithographic processes;*

[12] kolorimetriya – poliqrafiya müəssisələrində kolorimetr vasitəsilə və ya başqa üsulla maddələrdə rəngin miqdarının təyin edilməsidir.

- ***ISO 12647-3:2005*** *— Process control for the production of half-tone colour separations, proofs and production prints — Part 3: Coldset offset lithography on newsprint;*
- ***ISO 12647-4:2005*** *— Process control for the production of half-tone colour separations, proofs and production prints — Part 4: Publication gravure printing;*
- ***ISO 12647-5:2001*** *— Process control for the manufacture of half-tone colour separations, proof and production prints — Part 5: Screen printing;*
- ***ISO 12647-6:2006*** *— Process control for the production of half-tone colour separations, proofs and production prints — Part 6: Flexographic printing;*
- ***ISO 12647-7:2007*** *Graphic technology — Process control for the production of half-tone colour separations, proof and production prints — Part 7: Proofing processes working directly from digital data.*

Standartların hazırlanması ilə ISO-nun TC 130 (Graphic technology) adlı ayrıca bir komitəsi məşğul olur. Komitənin fəaliyyəti bütünlüklə, DIN (Almaniya Standartlaşdırma İnstitutu, Deutsches Institut für Normung) tərəfindən idarə olunur. Komitənin ən fəal üzvləri Almaniya ilə yanaşı ABŞ, Yaponiya, İtaliya, Rusiya olmaqla 18 ölkəni təmsil edən 20 müşahidəçidən ibarətdir.

Hazırda ölkəmizdə poliqrafiya sahəsində müvafiq standartların olmaması keyfiyyətsiz xammalın və məhsulların bazara ayaq açmasına, sifarişçi ilə icraçı arasında münaqişələrin artmasına və çap məhsullarının minimum tələblərə belə əməl edilmədən nəşr edilməsinə səbəb olur.

Hüquqi bazaya gəlincə, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu qismən də olsa, poliqrafiya sahəsindəki fəaliyyəti tənzimləyir. Müxtəlif vaxtlarda "Poliqrafiya haqqında" ayrıca qanunun qəbulu ilə bağlı təşəbbüslər olsa da, elə təşəbbüs səviyyəsində də qalıb.

Müqayisə üçün deyək ki, qonşu Rusiyada da poliqrafiya haqqında ayrıca qanun yoxdur. Oxşar qanun layihəsi ötən il hazırlansa da, qəbul olunmayıb. Ancaq Rusiyada poliqrafiya fəaliyyətini tənzimləmək üçün bugünədək 30-a yaxın müxtəlif normativ-hüquqi akt qəbul olunub.

## 5.8 Çap üçün xammalın və çap avadanlıqlarının xaricdən idxal olunması və çox baha başa gəlməsi

Azərbaycanda qəzet, kitab, jurnal və digər poliqrafiya məhsullarının istehsalı üçün istifadə olunan kağız, rənglər və digər xammal qonşu ölkələrdən idxal olunur. Kağız əsasən Rusiyadan və Ukraynadan idxal edilir. Lakin poliqrafçıların fikrincə, Ukrayna kağızı keyfiyyət baxımından Rusiya kağızından geri qalır. Ona görə də idxal olunan kağızın əsas hissəsi Rusiyanın payına düşür. Aşağıdakı cədvəldən Rusiyada kağızın bir tonu üçün orta illik istehsalşı qiymətlərini izləmək mümkündür. Cədvəl məlumatlarından göründüyü kimi qəzet kağızının qiyməti 2012-ci ilə nisbətən 2016-cı ildə 1.7 dəfə, ofset kağızının qiyməti isə müvafiq dövrdə daha çox, 1.8 dəfə artıb.

**Cədvəl 3. Rusiya Federasiyası orta illik istehsalçı qiymətləri„ 1 ton üçün rublla (ixrac üçün)[13]**

| | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|

[13] Mənbə: Rusiya Federal Mərkəzi Statistika Xidməti. http://www.gks.ru/dbscripts/cbsd/DBInet.cgi

| | | | | | |
|---|---|---|---|---|---|
| Qəzet kağızı, rulonda və vərəqlərdə | 16 678,79 | 15 850,86 | 16 923,31 | 25 537,77 | 27 785,54 |
| Ofset kağızı, çap üçün | 22 817,58 | 23 275,95 | 19 319,99 | 35 842,43 | 40 691,45 |
| Yazı və dəftər kağızı | 23 552,5 | 24 328,5 | 25 514,59 | 34 796 | |
| Rublun dollara nəzərən orta illik kursu[14] | 31.0734 | 31.8496 | 38.4667 | 61.2946 | 67.1899 |

Bu qiymətlərə nəqliyyat xərcləri, kömrük rüsumu, ƏDV, gömrük yığımları daxil ediləndən sonra kağızın qiyməti həddən artıq yüksəlir ki, bu da milli poliqrafiya sənayemizi təmsil edən sahibkarlar üçün əlavə problemlər yaradır, onları istehsal etdikləri məhsulların qiymətini yüksəltməyə vadar edir.

Çap avadanlıqlarına gəlincə, hazırda dünya bazarında yüksək texnologiya nümunəsi olan rəqəmsal avadanlıqlar təklif edən çox müxtəlif firmalar var. Çap avadanlıqlarının növləri onların göstərdiyi xidmətlərin növünə uyğun olaraq dəyişir. Hazırda bazarda aşağıdakı çap avadanlıqları təklif olunur:

- *Dərin çap üçün çap maşınları;*
- *Ofset çap üçün çap maşınları;*
- *Trafaret çap üçün çap maşınları;*
- *Fleksoqraf çap üçün çap maşınları;*
- *Kombinə edilmiş çap üçün çap maşınları;*
- *Rizoqraflar.*

Çap maşınlarının qiyməti növündən, firmasından, istehsal gücündən, rəngəbölmə funksiyalarından (rənglərin sayından) asılı olaraq dəyişir. Hazırda bazarda 20 min avrodan 1 milyon avroya qədər dəyişən qiymətlərlə çap maşınları təklif olunur[15]. Çap maşınlarının istehsalçıları Canon, Konica, HP, Oce, Oki Printing Solutions, Toshiba, Xeikon, Xerox kimi məşhur firmalardır.

## 6. Poliqrafiya məhsulları istehsalı sənayesinin inkişafı üçün təkliflər

1. **MTN tərəfindən poliqrafiya sənayesinin inkişafı üçün xüsusi konsepsiyanın hazırlanması.** *Konsepsiyada poliqrafiya sənayesinin mövcud durumu qiymətləndirilməli, onun nkişafına mane olan amillər nəzərdən keçirilməli, bu sahəyə dövlət dəstəyinin (gömrük və vergi güzəştləri, dövlət sifarişlərinin verilməsi formaları, nəşriyyatların maddi-texniki bazasının genişləndirilməsinin, poliqrafiya sənayesinin inkişafının, nəşriyyat məhsullarının satışının stimullaşdırılması, əhalinin və bazarın nəşriyyat məhsullarına olan tələbatını, ehtiyaclarını və təkliflərini öyrənməklə nəşriyyatların işinin istiqamətləndirilməsi və sair) bütün istiqamətləri ayrı-ayrılıqda nəzərdən keçirilməlidir;*

[14] Mənbə: http://www.kursvaliut.ru/
[15] http://troikaxxl.ru/poligraficheskoe-oborudovanie/4k-pechatnaya-mashina/, http://troikaxxl.ru/poligraficheskoe-oborudovanie/5k-pechatnaya-mashina/, http://troikaxxl.ru/poligraficheskoe-oborudovanie/cifrovye-pechatnye-mashiny

2. **Dövlət sifarişlərinin verilməsi sisteminin şəffafalaşdırılması.** *Dövlət büdcəsinin vəsaiti hesabına çap olunan kitabların nəşri üçün poliqrafiya müəssisələrinin şəfafaf tender mexanizmi vasitəsilə seçilməsi, bu sistemdə kök salmış neqativ meyllərin aradan qaldırılması;*
3. **Reklam bazarının canlandırırılması.** *Bunun üçün ilk növbədə, bütün sektorlarda biznes mühitinin yaxşılaşdırılması, onların fəaliyyətinə mane olan inzibati maneələrin aradan qaldırılması tələb olunur. İlkin dövrdə reklam bazarının canlandırılması üçün tender və müsabiqə elanlarının dövlət qəzetləri ilə yanaşı, müstəqil qəzetlərdə çap olunması tələbi qoyulmalı, qanunvericiliklə ildə bir dəfə auditor rəyləri çap etmək öhdəliyi olan ASC-lərin, bankların və digər müəssisələrin elanları özəl sektora məxsus KİV-lərdə çap etdirməsi üçün təşviq olunması;*
4. **Bakıda və rayonlarda götürülmüş qəzet köşklərinin yerinə qoyulan yeni köşklərin mətbuat yayımı firmalarına qaytarılması, bu köşklərdə əsasən qəzet, jurnal, kitab və digər poliqrafiya məhsullarının satışına imkan yaradılması, həm paytaxtda, həm də regionlarda yeni qəzet köşklərinin qoyulması;**
5. **Poliqrafiya müsəsislərinə vergi və gömrük güzəştlərinin verilməsi.** *İlk növbədə, qəzet və ofset kağızının ölkəyə idxalına qoyulmuş ƏDV və gömrük rüsumu ləğv edilməli və ya diferensiallaşdırılmış ƏDV dərəcəsi tətbiq olunmalı, poliqrafiya müəssisələrinə müəyyən vergi güzəştləri nəzərdə tutulmalıdır;*
6. **Poliqrafiya sahəsində çalışan sahibkarların peşəkar birliklərinin yaradılmasının təşviq olunması və onların qeydiyyatı prosesinin sadələşdirilməsi.** *Belə assosiasiyalar yaradıldıqdan sonra onların Beynəlxalq Mətbəəçilər Assosiasiyası və qonşu ölkələrdəki (Rusiya, Qazaxıstan və sair) oxşar Poliqrafiyaçılar Assosiasiyası ilə əməkdaşlıqlarının qurulması təmin olunmalıdır. Bu, təcrübə mübadiləsi ilə yanaşı, milli poliqrafiya müəssisələrində yeni texnologiyaların tətbiqini də sürətləndirə bilər;*
7. **Poliqrafiya sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi.** *İlk növbədə, bu sahədə mövcud olan beynəlxalq standartlar əsasında milli standartlar qəbul olunmalı, köhnə QOST standartlarından imtina olunmalıdır. Normativ bazanın yaradılması ilə yanaşı, hüquqi baza da təkmilləşdirilməli, yeni hüquqi aktlar qəbul olunmalıdır.*